

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 mart 2023-cü il №21 (2733) https://mod.gov.az Qiyməti 30 qəpik


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan Novruz bayramı əcdadlarımızın indiki nəsillərə müqəddəs yadigarıdır. Zamanın bütün sınaqlarından çıxaraq əsrlərin yaddaşında silinməz izlər qoyan bu el bayramı uzaq dövrlərdən bəri xalqımızın mənəvi dünyasının dərinliklərinə nüfuz etmiş, ənənəvi dəyərlərimizin təşəkkülündə mühüm rol oynamışdır. Ulu babalarımızın zəngin daxili aləmi, müdrik həyat fəlsəfəsi və gələcəklə bağlı işıqlı arzuları bahar bayramında dolğun təcəssümünü tapmışdır.

Ülvi bəşəri hisslərin daşıyıcısına çevrilən, yeniləşdirici gücə malik Novruz bayramı bu gün də insanlar arasında səmimi münasibətlərə yol açaraq dostluq, mərhəmət və xeyirxahlıq duyğularını möhkəmləndirir, cəmiyyətimizin vahid məfkurə ətrafında inkişafının ahəngdarlığını təmin edir. Milli varlığımızın ayrılmaz parçası saydığımız və yad təsirlərdən qoruduğumuz Novruz ənənələri mənəvi sərvətlərimizə hörmətlə yanaşmağımızın yüksək ifadəsi, eyni zamanda bəşər mədəniyyəti xəzinəsinə qiymətli töhfəmizdir.

Xatirəsini daim minnətdarlıqla andığımız şəhidlərimizin öz canları, qanları bahasına azadlıq bəxş etdikləri əzəli torpaqlarımızda gerçəkləşdirilən irimiqyaslı layihələr, geniş vüsət alan quruculuq işləri və əhalimizin doğma yurdlara qayıdışı ilə yenidən canlanan həyat yaz fəslinin Odlar diyarına builki gəlişinə xüsusi abhava qatır və rəmzi məna qazandırır.

Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan, qəlbi vətən sevgisi ilə döyünən və baharı bizimlə birgə qarşılayan soydaşlarımıza bayram salamlarımı yetirirəm.

Bu əlamətdar bayramın hər evə, hər ocağa yeni sevinc, bol ruzi-bərəkət və firavanlıq gətirməsini arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 mart 2023-cü il

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak etmək üçün martın 15-də Türkiyəyə səfərə gəlib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Ankaradakı Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün məhz Türkiyədə keçirilməsi təşəbbüsünün Azərbaycan Prezidentinə aid olduğunu deyən Türkiyə dövlətinin başçısı bu təşəbbüsə görə təşəkkürünü bildirib.

Türk Dövlətləri Təşkilatının bu formatda keçirilən sammitlərinin əhəmiyyəti qeyd edildi, Zirvə görüşünün Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması mövzusuna həsr olunmasının önəmi vurğulanıb.

Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən dəhşətli zəlzələdən dərhal sonra ölkəmizin göstərdiyi qardaşlıq dəstəyini və nümayiş etdirdiyi həmrəyliyi bir daha minnətdarlıqla xatırladı. Türkiyə Prezidenti Azərbaycandan olan xilasedicilərin və həkimlərin zəlzələ bölgəsində səylərini, həmçinin təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün ölkəmizin humanitar yardımlarını qeyd edib.

Zəlzələ ilə bağlı bir daha başsağlığını çatdıran Prezident İlham Əliyev təbii fəlakətin Azərbaycan xalqını dərindən sarsıtdığını deyib.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bir millət, iki dövlət prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, ticarət, enerji, müdafiə, müdafiə sənayesi sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və regional məsələlər müzakirə olunub.

Həmçinin söhbət zamanı Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib.

Dövlətimizin başçısı İlham Əliyev tədbirdə iştirak edib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Sammitin açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra "Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək deyib: "Zirvə görüşünün keçirilməsi çağırışı ilə çıxış edən Can Azərbaycanın Prezidenti cənab İlham Əliyevə şəxsən öz adımdan və millətim adından təşəkkürlərimi bildirirəm".

Ankara Sammitində türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarların qəbul olunacağını vurğulayan Rəcəb Tayyib Ərdoğan bu baxımdan Türk İnvestisiya Fondunun yaradılmasına dair qərarı xüsusi qeyd edib. Dövlət başçısı bu Fondun üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcəyini bildirib.

Xəzər hövzəsində Türk dünyası ölkələri ilə neft, təbii qaz və elektrik enerjisi sahələrində irimiqyaslı layihələrin birlikdə uğurla həyata keçirildiyini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan deyib: "Bakı-Tbilisi-Ceyhan boru kəməri 16 ildir Azərbaycan, Türkmənistan və Qazaxıstan neftini dünya bazarlarına fasiləsiz çatdırır. Onurğa sütununu TANAP-ın təşkil etdiyi Cənub Qaz Dəhlizi sayəsində Türk dövlətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayırlar".

* * *

Türk Dövlətləri Təşkilatına sədrlik edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkiyədə baş vermiş zəlzələnin bütün Türk dünyasını dərindən sarsıtdığını vurğulayıb. Şavkat Mirziyoyev Türkiyədə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə görülən ehtiyat tədbirləri, zəlzələdən zərər çəkənlər üçün yüz minlərlə yeni evin tikilməsi, infrastrukturun qurulması ilə bağlı proqram və layihələrin əhəmiyyətini qeyd edib. Bildirib ki, zəlzələdən dərhal sonra görülən tədbirlər nəticəsində bir çox insanın həyatı xilas edilib.

Özbəkistan Prezidenti zəlzələ nəticəsində həlak olanların xatirəsini anmaq üçün hər il fevralın 6-sının Türk Dövlətləri Təşkilatı çərçivəsində "Həyatını itirənlərin anım və birlik, bərabərlik və həmrəylik günü" elan olunmasını təklif edib.

Son illərdə qlobal iqlim dəyişikliyi nəticəsində dağıdıcı hadisələrin sayının və miqyasının artdığını vurğulayan Prezident Şavkat Mirziyoyev belə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında TDT-nin sistemli əməkdaşlıq platformasının, mülki müdafiə sisteminin yaradılmasının, qabaqcıl dünya təcrübəsinin tətbiqinin, ictimai məlumatlılığın artırılmasının, sıx əməkdaşlıq və dəstək mexanizmlərinin formalaşdırılmasının vacibliyini bildirib. Dövlət başçısı Təşkilat çərçivəsində Təbii Fəlakətlərin Monitorinqi və Təhlili Mərkəzinin yaradılması təşəbbüsünü irəli sürüb.

(Ardı 2-ci səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri

(Əvvəli 1-ci səhifədə)




Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin törətdiyi fəsadlar, qardaş ölkəyə edilən humanitar yardımlar barədə videoçarx nümayiş olunub.

Təbii fəlakət nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

* * *

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov çıxışında Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun TDT-nin növbəti toplantısında iştirakında ölkəsinin bu Təşkilata üzv dövlət kimi qəbul ediləcəyinə ümidvar olduğunu bildirib. Ankara Zirvə görüşünün mövzusunun tarixi əhəmiyyətə malik olduğunu qeyd edən Qurbanqulu Berdiməhəmmədov Türk dövlətlərinin bir-birinə hərtərəfli dost və qardaş dəstəyi verməsinin, belə ağır günlərdə bir olmasının vacibliyini vurğulayıb.

* * *

Dövlətimizin başçısı Fövqəladə Zirvə görüşündə çıxış edib.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları, əziz dostlar.

Qardaş Türkiyədə çoxsaylı insanın tələfatına və xəsarət almasına səbəb olan güclü zəlzələnin fəsadları bizi olduqca kədərləndirib. Bu dağıdıcı zəlzələ on minlərlə insanın həyatına son qoyub. Əziz qardaşım, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına Azərbaycan xalqı adından bir daha dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.





Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olmuşdur. Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndərilib. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə 3 mindən artıq şəxsə tibbi xidmət göstərib.

Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülmüşdür. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılmışdır.

Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaq.

Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır.

Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi.

Eyni zamanda, 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir.

2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır.

Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər.

Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir.

2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə görüşündə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi onun Türk dünyasının gücləndirilməsində böyük xidmətlərini bir daha sübut edir. Əminəm ki, əziz qardaşım bundan sonra da uzun illər ölkələrimiz arasındakı qardaşlıq əsasında qurulmuş əlaqələrin daha da möhkəmləndirilməsinə böyük töhfələr verəcəkdir.

Əziz dostlar, 30 illik işğal dövründə yüzlərlə şəhər və kəndimiz, tarixi və dini abidələr, qəbiristanlıqlar Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılmışdır. Yerlə-yeksan edilən Ağdam şəhərini xarici ekspertlər "Qafqazın Hirosiması" adlandırırlar. Qarabağ və Şərqi Zəngəzurda 67 məsciddən 65-i ermənilər tərəfindən dağıdılıb, qalan ikisindən isə donuz və inək tövləsi kimi istifadə edilib.

Təbii sərvətlərimiz talanıb, ətraf mühitə ciddi zərər vurulub.

Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib. Torpaqlarımız azad edildikdən sonra bir neçə yerdə kütləvi məzarlıq aşkar etmişik. Ermənistan hələ də azərbaycanlı itkinlərin taleyi barədə məlumat verməkdən yayınır.

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni, 2020-ci ilin noyabr ayından bəri 300-ə yaxın azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya ağır yaralanmışdır.

2022-ci ildə Praqa və Soçidə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmamışdır. Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır.

Ermənistan həm də Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır.

Beləliklə, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatı kobudcasına pozur və buna görə məsuliyyət daşımalıdır.

2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq.

Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misligörünməmiş bir yenidənqurma modelidir.

Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq.

Yenidənqurma prosesində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Bu günə qədər Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla gedib.

Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikilən məktəbə və Qazaxıstan tərəfindən inşa olunan yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm.

Eyni zamanda, bildirmək istəyirəm ki, bu yaxınlarda Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğız İnkişaf Fondu yaradılmışdır.

Hörmətli həmkarlar, Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır.

Tarixi torpağımız olan Qərbi Zəngəzur 1920-ci ilin noyabr ayında sovet hökumətinin qərarı ilə Azərbaycandan ayrılıb Ermənistana verilməsi Türk dünyasının coğrafi cəhətdən ayrılmasına səbəb olmuşdur. 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulmuşdur. Ermənistan Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, indiki Ermənistan ərazisində, yəni, Qərbi Azərbaycanda da mədəni irsimizi, məscidləri, tarixi abidələrimizi dağıtmışdır. Azərbaycan ictimaiyyəti dəfələrlə UNESCO-ya indiki Ermənistanda Azərbaycan xalqının mədəni irsinin monitorinq edilməsi məqsədilə bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi xahişi ilə müraciət etmişdir və UNESCO-dan müsbət cavab gözləyir.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri

**(Əvvəli 2-ci səhifədə)**



Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən, indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir.

Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılıqlı prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir.

Diqqətə görə təşəkkür edirəm.

* * *

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxışında zəlzələ ilə əlaqədar türk xalqının yaşadığı ağrı-acının bütün Türk dövlətləri tərəfindən paylaşıldığını bildirib, ölkəsinin qardaş Türkiyəyə hər zaman yardım göstərməyə hazır olduğunu qeyd edib.

Türk dövlətlərinin bu vacib zamanda mükəmməl birlik və həmrəylik nümayiş etdirdiyini vurğulayan Qazaxıstan Prezidenti qardaşlığın, qarşılıqlı dəstəyin davamlı olmasını arzulayıb. O, türk xalqının qarşılaşdığı hər çətinlikdən daha güclü formada çıxdığını qeyd edib, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə bu dəfə də belə olacağına əminliyini vurğulayıb.

* * *

Qırğızıstan Prezidenti Sadır Japarov çıxışında bu Zirvə görüşünün təbii fəlakətdən sonra keçirildiyini diqqətə çatdırıb, qırğız xalqı ilə türk xalqı arasında qədim tarixi əlaqələrin bundan sonra da davam edəcəyini bildirib. Qırğızıstanın Təşkilatın üzvləri arasında davamlı toplantıların keçirilməsinə böyük önəm verdiyini deyən Sadır Japarov bu mənada üzv dövlətlər arasında siyasi dialoqun əhəmiyyətini vurğuladı. Çoxtərəfli əməkdaşlığın Qırğızıstan üçün çox mühüm olduğunu diqqətə çatdıran Prezident Sadır Japarov ölkələrimiz arasında strateji tərəfdaşlığı dəstəklədiyi və daha da inkişaf etdirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə edib.

Qırğızıstan Prezidenti bugünkü Zirvə görüşünün mövzusunun fəlakət-fövqəladə halların idarə edilməsi və humanitar yardım kimi məsələlərin Təşkilata üzv dövlətlərdən birgə fəaliyyət, sıx əməkdaşlıq tələb etdiyini diqqətə çatdırıb.

Seçkilərdə Türkiyə Prezidentə uğurlar arzulayan Sadır Japarov məhz Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə reallaşdırılan islahatların türk xalqını yeni-yeni uğurlara çatdıracağına əminliyini bildirib.

* * *

Macarıstanın Baş naziri Viktor Orban Türkiyədə baş verən zəlzələnin dəhşətli olduğunu bildirib, yenidənqurma işlərində bu ölkəyə dəstək verməkdən şərəf duyacaqlarını deyib. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə sürətli inkişafının şahidi olduğunu vurğulayan Baş nazir qarşıdakı müddətdə bunun davam edəcəyinə inamını ifadə edib. Bu gün dünyanın üzləşdiyi münaqişələrə toxunan Baş nazir Türk Dövlətləri Təşkilatının üzv ölkələrinə güclü sülh səylərinə görə təşəkkürünü bildirib. Qlobal iqtisadiyyatda cərəyan edən hadisələr nəticəsində müxtəlif blokların yaranmasının Macarıstanın maraqlarına uyğun olmadığını söyləyən Viktor Orban bütün ölkələr arasında əlaqələrin qurulmasının tərəfdarı olduqlarını vurğulayaraq deyib: "Türk dünyası, Türk dövlətlərinin bu mənada Qafqaz və Mərkəzi Asiyadakı ölkələr olaraq açar rol oynayacaqlarını düşünürəm. Münasibətlərimizi qarşılıqlı hörmət çərçivəsində davam etdirərək bütün dünyaya örnək ola bilərik. Bu məqsədlə Macarıstan olaraq enerji, ticarət, eyni zamanda, daşıma sahələrində birgə səyləri gücləndirməyə töhfə vermək niyyətindəyik".

* * *

Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar tədbirə dəvətə və bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Türkiyə və Azərbaycan prezidentlərinə minnətdarlığını bildirərək deyib: "Məni buraya dəvət etdiyi üçün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana çox təşəkkür edirəm. Azərbaycan Prezidenti İlham Əliyevə bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə dərin minnətdarlığımı bildirirəm".

Prezident Ersin Tatar güclü və böyük Türkiyə dövlətinin zəlzələnin fəsadlarını ən qısa vaxtda aradan qaldıracağına əminliyini bildirərək, belə hadisələr zamanı dost, qardaş ölkələrimiz arasında həmrəyliyin və birliyin böyük əhəmiyyət daşıdığını vurğulayıb.

* * *

Sonra Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri və qardaş ölkənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini Binəli Yıldırım, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev çıxış ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə bir daha minnətdarlıq edərək deyib: "Qardaşlığın təzahürü olan bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə İlham qardaşıma və onun şəxsində Can Azərbaycana bir daha təşəkkürümü bildirirəm".

Prezident Ərdoğan Türk Dövlətləri Təşkilatının hazırkı sədri Özbəkistana da minnətdarlığını bildirib.

Zirvə görüşünə yekun vuran Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sammitdə qəbul olunan qərarların ölkələrimiz arasında əməkdaşlığın inkişafına yeni töhfələr verəcəyinə əminliyini bildirib.

Sonda Ankara Bəyannaməsi və mülki müdafiə mexanizminin qurulmasına dair Protokol imzalanıb.

* * *

Qeyd edək ki, bu tədbirin Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyev qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış edib. Digər iştirakçı ölkələrin rəhbərləri ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunub. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, Türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

"Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr olunan Zirvə görüşü Türkiyənin cənub və cənub-şərq bölgələrində baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirə edildiyi platformadır. Liderlər fəlakətlərlə mübarizədə Türk Dövlətləri Təşkilatı daxilində çoxtərəfli sıx əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkib, regionda mövcud çağırışlarla bağlı məsləhətləşmələr aparıblar.

* * *

Martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının birgə naharı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri martın 16-da başa çatıb.

Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikası müdafiə nazirinin Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin, eyni zamanda, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində dövlət səviyyəsində qeyd olunan və xalqımızın ən əziz bayramı sayılan Novruz yazın gəlişindən, təbiətin oyanışından xəbər verir. Şərqlə Qərbin qovuşduğu Azərbaycan qədim zamanlardan müasir günümüzədək milli-mənəvi dəyərlərimizə əbədiyaşarlıq qazandıraraq Novruz ənənələrini qoruyub saxlamışdır. Xalqımız ən sərt dönəmlərdə belə Novruzun gəlişini özünəməxsus coşqu, sevinc, yüksək əhval-ruhiyyə ilə qeyd edib. Əsrlər boyu odlar yurdu Azərbaycanda Novruz ənənələrinin yaşanması xalqımızın milli-mənəvi dəyərlərinə verdiyi ən böyük qiymətin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində müstəqil Azərbaycanda vətəndaş həmrəyliyi əldə olunub, ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub. Bu gün respublikamızın iqtisadiyyatının fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələri daha da möhkəmlənib. Dövlətimizin inkişafında prioritet istiqamətlərdən hesab edilən ordunun hərbi qüdrətinin gündən-günə artırılması məqsədilə atılan addımlar ölkədə həyata keçirilən islahatların əsas tərkib hissələrindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycanın dünyada nüfuzu daha da artaraq xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatmışdır.

Bu inamlı fəaliyyətlərin məntiqi nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə erməni silahlı birləşmələrinin törətdiyi genişmiqyaslı təxribatlara qarşı rəşadətli Azərbaycan Ordusu başladığı uğurlu əks-hücum əməliyyatında, 44 günlük Vətən müharibəsində əsgər və zabitlərimizin qəhrəmanlığı, fədakarlığı sayəsində tarixi torpaqlarımızı düşmən işğalından azad etdi. Müzəffər Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, qətiyyətli mövqeyi, ordumuzun gücü, peşəkarlığı parlaq Qələbəni təmin etdi, ərazi bütövlüyü bərpa olundu. Bu gün rəşadətli ordumuz işğaldan azad olunmuş ərazilərdə öz mövqelərini daha da möhkəmləndirərək genişmiqyaslı bərpa-quruculuq işlərinə layiqli töhfələrini verməkdədir.

Hərbi anda sədaqətə, çətin və şərəfli hərbi xidmətdə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikasının suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsini hər zaman olduğu kimi Novruz bayramı ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik.

Şəhid ailələri daima Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunur. Onların problemlərinin həlli istiqamətində müxtəlif layihələr icra edilir.

Vətən uğrunda şəhid olanların valideynlərini, ailələrini, sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Arzu edirəm ki, Novruz bayramı gəlişiylə ailələrinizə firavanlıq, xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bir daha hər birinizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Novruz bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

# Hərbi hissələrdə bayram şənliyi təşkil edilib

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun, Müdafiə Nazirliyinin və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə hərbi hissələrdə bayram tədbirləri keçirilib.

Bayram tədbirlərində əvvəlcə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni oxunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev və prokurorluğun digər rəhbər heyəti, müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı general-leytenant Ənvər Əfəndiyev və digər çıxış edənlər Novruz bayramı münasibətilə əsgər və zabitləri təbrik edib, onlara xoş arzularını çatdırıblar. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu sahəsində dövlət siyasətinin nəticəsi olaraq son illərdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz bütün qoşun növləri üzrə inkişaf edərək möhkəmlənib, maddi-texniki bazası gücləndirilib və döyüş qabiliyyəti artırılıb. Ulu Öndər Heydər Əliyev ordunun xalqımızın tərkib hissəsi olmasını vurğulamaqla, dövlətin, xalqın qayğısı ilə əhatə olunmasını, hər kəsin orduya qayğı göstərməsini də tövsiyə edib.







Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də uğurla davam etdirilir. Azərbaycanda iqtisadi inkişafın sürətlənməsi ölkəmizin təhlükəsizlik və müdafiə potensialının möhkəmlənməsinə bilavasitə təsir göstərib, Silahlı Qüvvələrdə modern islahatlar aparmağa imkan verib, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, eyni zamanda, hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılmasına zəmin yaradıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müntəzəm olaraq əsgər və zabitlərlə görüşlər keçirməsi, xidmətdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim etməsi Silahlı Qüvvələrimizin şəxsi heyətində böyük ruh yüksəkliyi yaradır, onları mətin mübarizəyə ruhlandırır.

Bütün bunların nəticəsi olaraq 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə rəşadətli ordumuz 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızı azad edərək ərazi bütövlüyümüzü bərpa etməyə müvəffəq olub.

Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək bayram münasibətilə hərbi hissənin şəxsi heyətini təbrik edib, onlara çətin və şərəfli xidmətdə - Vətənin müdafiəsində uğurlar arzulayıb. Bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirərək, 44 günlük Vətən müharibəsində Zəfər qazanıb. Əsgərlər və zabitlərimiz şərəfli peşə sahibi olduqlarını bir daha sübut ediblər. Torpaqlarımız şəhidlərin qanı bahasına azadlığa qovuşub. Bu gün Vətənin keşiyində dayanan əsgərlər və zabitlərimiz onlara əmanət olan torpaqları göz bəbəyi kimi qoruyurlar.

Hərbi hissələrin rəhbərliyi qonaqlara təşəkkürünü bildirib və belə görüşlərin əsgərlər üçün mənəvi dəstək rolu oynadığını, onlarda ruh yüksəkliyi yaratdığını söyləyiblər. Bildirilib ki, əsgər və zabitlər Ali Baş Komandan İlham Əliyevin əmr və tapşırıqlarını yerinə yetirməyə hər an hazırdırlar.

Çıxış edən hərbçilər göstərilən xüsusi diqqət və qayğıya görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Tədbirlərdə əsgərlərə bayram sovqatları verilib, konsert proqramları təşkil olunub.






# Azərbaycan Ordusunda ağacəkmə aksiyaları keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi Azərbaycan Ordusunda keçiriləcək tədbirlər planına əsasən həyata keçirilən fəaliyyətlər davam etdirilir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq Müdafiə Nazirliyinin idarə və hərbi hissələrində ağacəkmə aksiyaları keçirilib.

Təbiətin qorunmasına töhfə vermək, ekoloji tarazlığın bərpasına, ətraf mühitin mühafizəsinə kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək və ictimaiyyətin diqqətini yaşıllaşdırma işinin vacibliyinə yönəltmək məqsədilə keçirilən aksiyalarda müxtəlif növ ağaclar əkilib.



# Hərbi institutda növbəti konfrans keçirilib



*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən tədbirlər davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Heydər Əliyev adına Hərbi İnstitutda "Heydər Əliyev şəxsiyyəti, siyasi portreti və idarəçilik təcrübəsi" mövzusunda institutun Kursant Hərbi-Elmi Cəmiyyətinin növbəti 18-ci konfransı keçirilib.

Konfransda hərbi institutun zabit, professor-müəllim heyəti ilə yanaşı, Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyası, Dövlət Sərhəd Xidməti Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinin nümayəndələri də iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda "Hərbi nəzəri elmlər", "Humanitar elmlər və milli təhlükəsizlik", "Texniki elmlər", "Fundamental və təbiət elmləri" və "İqtisadiyyat və informasiya texnologiyaları" bölmələri üzrə həm Heydər Əliyev adına Hərbi İnstitutdan, həm də digər ali təhsil müəssisələrindən ümumilikdə 70 nəfərə yaxın kursantın məruzəsi dinlənilib, aktual məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Həmçinin "Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti gənclər üçün örnəkdir", "Heydər Əliyevin təhlükəsizlik orqanlarında fəaliyyəti", "Heydər Əliyevin ordu quruculuğu sahəsində gördüyü işlər" və digər mövzularda məruzələr təqdim olunub.





Qeyd edilib ki, konfransın keçirilməsində əsas məqsəd elmi və elmi-tədqiqat işinə meyilli kursantların aşkar edilməsi, hərb elminin inkişaf etdirilməsində onların rolunun artırılması, fərdi bacarıq və vərdişlərinin, intellektual səviyyəsinin, dünyagörüşünün yüksəldilməsi, elmi yaradıcılıq fəaliyyətinin, sərbəstliyinin, müstəqil düşüncə, analitik və tənqidi təfəkkürünün formalaşdırılması, eləcə də hərb nəzəriyyəsinin və praktikasının aktual məsələlərini müzakirə etmək, həmçinin aparılan tədqiqatların hərb elminin inkişafında rolu barədə konfrans iştirakçılarını məlumatlandırmaqdan ibarətdir.

Sonda məruzələri müsbət qiymətləndirilən kursantlara sertifikat və fəxri fərmanlar təqdim olunub.

*Gənc zabitlərimiz*

# “Hərbi xidmət mənəvi borcdur”

İkinci Qarabağ müharibəsindən əvvəl ön xətdə, səngərlərdə əsgərlərlə söhbətləşəndə əsgərlərdən birinin "Vətən haradan başlanır?" sualına müxtəlif cavablar səslənmişdi. Zabitlərdən biri "Vətən əsgər ürəyindən başlayır" demişdi. Əsgərlər həmin gün döyüş növbətçiliyinə bu cavabın mahiyyətli ovqatıyla getmişdilər. Aylar sonra İkinci Qarabağ müharibəsində torpaqlarımızı işğaldan azad etməklə səngərləri sərhədlərimizə köçürmüşdülər. Bu, gənclərin Vətən sevgisini formalaşdırmışdı, çağırışçılar hərbi xidmətə bu ovqatla gedirdi...

Azər Həsənov Gəncə Aqrar Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdi. 2020-ci ilin iyununda onu da hərbi xidmətə çağırdılar. İkinci kursda oxuyanda hərbi xidmətdən qayıtmış qonşularının qürurla dediyi kəlmələri xatırladı: "Hərbi xidmətə gedəndə nə qədər sevinirsənsə, tərxis olunanda o qədər kövrəlirsən. Hərbi xidmət məktəbdir, hərbi vərdişlər, hərbi məsuliyyət öyrədən, əsgəri dostluq aşılayan qüdrətli məktəb...". Qüdrətli məktəb adlandırılan hərbi xidmətə gedəcəkdi...

Hərbi xidmətdəydi. O da komandirlərinin, zabitlərin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirir, Hərbi Nizamnamələrin tələblərinə uyğun xidmət edirdi, hərbi hissədə nümunəvi əsgər kimi tanınırdı...

İkinci Qarabağ müharibəsində zabitlər də, əsgərlər də döyüşlərə getmək, döyüşmək




istəsələr də, Azərin xidmət etdiyi hərbi hissə döyüşlərə cəlb edilmədi.

İkinci Qarabağ müharibəsi ordumuzun tarixi qələbəsi ilə başa çatdı, torpaqlarımız işğaldan azad edildi. Bu böyük qələbə döyüşlərdə iştirak etməyən əsgərləri də qürurlandırmışdı. Döyüşdə iştirak etməyənlər döyüşdə iştirak edənlərə həsəd aparırdılar. Bu həsəd necə əsgərin peşə seçimini müəyyənləşdirirdi. Azər Həsənov da həqiqi hərbi xidmətdən sonra ehtiyat zabit hazırlığı kursuna daxil oldu...

Leytenant Azər Həsənov hərbi xidmətini zabit kimi davam etdirir. Bir vaxtlar özündən tələb edilənləri əsgərlərindən tələb edir, özünə nələri aşılamışdılarsa, əsgərlərinə də onları aşılayır, özü necə xidmət etmişdisə, əsgərlərinə də elə xidmət etməyi tövsiyə edir. Bu da hərbi xidmətə, deməli, dövlətə, dövlətçiliyə sədaqətdir...

Leytenant Azər Həsənov dedi ki, hərbi xidmət təkcə vətəndaşlıq borcu deyil, həm də mənəvi borcdur. Mənəvi borcun ödənilmə müddəti olmur, bu borc son nəfəsəcən borc hesab edilir. Yəni, Vətən müqəddəsiliyi bu borcu da müqəddəsləşdirir. Hərbi xidmət ona görə də müqəddəsdir. Əsgərlərlə bu haqda həmişə söhbətlərimiz olur. Bu söhbətlər onların mənəvi-psixoloji hazırlığında gərəklidir...

- Əsgərlərin mənəvi-psixoloji hazırlığında Vətən müharibəsi iştirakçılarının xatirələri də əhəmiyyətlidir. Onlar hər xatirəni döyüş tarixi kimi dinləyirlər. Müharibə tarixi dövlətçilik tarixidir. Əsgərlərimiz dövlətçilik tariximizi maraqla öyrənir, öyrəndikləri düşüncələrini Vətənin müqəddəsliyinin daha əhatəli dərkinə yönəldir, - leytenant Azər Həsənov əsgərlərin mənəvi zənginliyini Vətən sevgisinin müəyyənləşdirdiyini də dedi...

"Həmişə İkinci Qarabağ müharibəsində iştirak edə bilmədiyimə görə təəssüflənirdim. Həqiqi hərbi xidmətdən sonra zabit hazırlığı kursu təəssüfümü bir qədər yumşaltdı. Taleyimdən razıyam ki, zabitəm, xidmətimi zabit kimi davam etdirirəm. Qürurla deyirəm ki, mən Azərbaycan Ordusunun zabitiyəm!..", - gənc zabitin qürurunu sezmək çətin deyil...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi institutun kursantları ilə praktiki təlim keçirilib



Heydər Əliyev adına Hərbi İnstitutun 2022-2023-cü tədris ili üçün hazırlıq planına əsasən Hərbi Dəniz Qüvvələri fakültəsinin kursantları ilə "praktiki dəniz təlimi" keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə kursantlara şəxsi heyətin gəmidə davranış, təhlükəsizlik qaydaları və gündəlik fəaliyyəti izah edilib.

Kursantlar gəmilərin döyüşə və səfərə hazır vəziyyətinə gətirilməsi, eləcə də digər fəaliyyətləri yerinə yetiriblər.

Keçirilən məşğələlərdə əsas məqsəd kursantların tədris müddətində yiyələndikləri nəzəri bilik və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.



# Hərbi xidmət, Novruz tonqalı, niyyət işığı

## Ümummilli Lider Heydər Əliyev:

### *"Novruz bayramı tarixi irsə bağlılığımızı parlaq nümayiş etdirir"*

*Min illərlə yaşadılan adətlər, ənənələr xalqın mədəniyyətinin tərkib hissələrindəndir. Bunlar yeniyetmələrin, gənclərin dünyagörüşünün formalaşmasında, vətənsevərliyin tarixi ənənələrlə bağlılığında, bu ənənələr əsasında daha da genişlənməsində əhəmiyyətlidir. Novruz bayramını şərtləndirən adətlərin yaşadılması da bunun təzahürüdür.*

*Yaz həm ruhən təzələnmə fəsli, həm də Novruz bayramının verdiyi könül xoşluğudu. Novruz bayramını hərbi qulluqçularımız da coşqu ilə qarşılayırlar. Novruz - niyyətlər bayramıdı, istəklər, murazlar bayramıdı. Novruzda qalanan bayram tonqalları göy üzünə niyyət misraları yazır elə bil. Bu misraları ruhun ululuğa müraciəti də adlandırmaq olar...*

*Bu ilin Novruz bayramı hərbi qulluqçuların xalq adına, dövlət adına, dövlətçilik adına gözəl niyyətlərinin bayramıdı. Onlar hərbi qulluqçularımızı və xalqımızı əziz bayram münasibətilə təbrik edirlər. Hər təbrik bir ürəyin niyyət işığıdı...*

"Azərbaycan Ordusu"



**Kapitan Tural Piriyev:**

- Hər zaman zabit olmaq, ordu sıralarında xidmət etmək böyük xəyallarımdan olub. Anlayırdım ki, bu xəyalı gerçəkləşdirmək üçün çox çalışmalıyam. Zabit olmaq istəyi ilə çalışdım da. Təhsilimi uğurla başa vurduqdan sonra ordu sıralarında xidməti vəzifəmi yerinə yetirirəm. Gənc əsgərlərlə ünsiyyət qurmaq, silahla davranış qaydalarını öyrətmək xüsusi bacarıq tələb edir. Onlarla apardığımız vətənpərvərlik mövzusundakı söhbətlər nəticəsində Vətən sevgiləri daha da yüksəlir. Xalqımızın hər bayramını hərbi xidmətdə olan əsgərlərimizlə adət-ənənələrimizə uyğun qarşılayırıq.

Novruz bayramı hərbi hissəmizdə də coşqu ilə qarşılanacaq, Novruz bayramını şərtləndirən tonqallar qalanacaq, birlik rəmzi olan tonqalların ətrafında toplanılacaq.

Xalqımızı, qalib ordumuzun zabit və əsgərlərini əziz bayram münasibətilə səmimi-qəlbdən təbrik edir, xoş arzu və niyyətlərinə çatmalarını arzulayıram. Düşünürəm ki, ən böyük bayram niyyətimiz Ali Baş Komandan İlham Əliyevin 2021-ci ildə Şuşada qaladığı bayram tonqalı ilə gerçəkləşdi. İndi bayramlarımız Cəbrayılda, Zəngilanda və işğaldan azad edilmiş digər torpaqlarımızda da qeyd edilir. Arzu edirəm ki, qalanan tonqallarımızın odu heç vaxt sönməsin. Novruz bayramınız mübarək, əziz hərbi qulluqçularımız!..

**Leytenant Samir Musayev:**

- Novruz adətləri hər birimizin yaddaşımızda da yaşayır, düşüncələrimizdə də. Hər il Novruzun gəlişini böyük sevinclə gözləyirik. Uşaqlığımızda da belə gözləmişik, yeniyetməliyimizdə də. Bu adətlərin hər biri həm ayrılıqda, həm də vəhdətdə xalqımızın min illik tarixinin ifadəsidir. Təbiətin oyanışını xalqın sabahlarına ad edənlər, sabahlar üçün bu adətləri qoruya-qoruya torpağı da qoruyublar. Hər il Novruz tonqalları el-obanın, xalqın firavan gələcəyi naminə istək kimi çatılıb. Bu tonqalın dövrəsində xoş diləklər səslənib, gərəkli öyüdlər eşidilib. Vətənə, torpağa ad olan diləklər, bu diləklərin gerçəkləşməsinə görə deyilən öyüdlər tonqalın dövrəsində içilən anda dönüb.

Yadıma gəlir ki, Novruz tonqalının üstündən hoppanardıq, böyüklər buna tonqalın müqəddəsliyinə qovuşmaq deyirdilər. İllərlə o müqəddəsliyə biz də can atmışdıq. O müqəddəsliyin mahiyyətini böyüyəndən sonra öyrənmişik, hərbi xidmətdə bilmişik, daha geniş dərk etmişik.

2020-ci ilin Novruz bayramında tonqallar bir niyyətlə qalanmışdı: torpaqlarımız işğaldan azad edilsin! 2020-ci il sentyabrın 27-də əks-hücum kimi başlayan İkinci Qarabağ müharibəsi ordumuzun tarixi Zəfəri ilə başa çatdı.

2021-ci ilin Novruz bayramı-



nın gözəl ovqatını heç birimiz heç zaman unutmayacağıq. Onda Novruz tonqalları gözəl bir niyyətlə qalanmışdı. Azərbaycanın ərazi bütövlüyü tam təmin edilsin!

Bu il Novruz tonqalları daha bir xoş niyyətlə qalanır: İşğaldan azad olunmuş şəhər və kəndlərimizdə quruculuq işləri uğurla başa çatsın!

Mən xidmət etdiyim bölüyün şəxsi heyəti adından, şəxsən öz adımdan Azərbaycan Ordusunun əsgər və zabitlərini bayram münasibətilə təbrik edir, hər birinə möhkəm cansağlığı, xidməti uğurlar arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Seymur Hüseynquliyev:**

- Novruz bayramı xalqımızın ən önəmli bayramlarından biridir. Yazın gəlişi ilə təbiət oyanır: ağaclar tumurcuqlayır, otlar göyərir, çiçəklər ləçəklə-



yir. Əcdadlarımız yazın gəlişini yeni il kimi qeyd ediblər. Hazırda bir çox Şərq ölkələrində təqvimin dəyişilməsi Novruzla əlaqəlidir.

Rus imperiyasının tərkibində olduğumuz illər ərzində xalqımıza bu bayramı qeyd etmək qadağan edilmişdi. Azərbaycan yazıçısı, şairi, dramaturqu, filoloqu, dövlət və ictimai xadim Şıxəli Qurbanovun təşəbbüsü ilə Novruz bayramı Azərbaycanda kütləvi şəkildə qeyd edilməyə başladı. Lakin xalqımız qədim adət-ənənəsini unutmamış, qadağalara görə məhdud çərçivədə - ailə, el-elat səviyyəsində də olsa qeyd etməklə yaşatmışdı.

Mən müstəqilliyimizdən əvvəl doğulmuşam. Uşaqlığımızda kəndimizdə hər il su, od, yel, torpaq çərşənbələrini qeyd edirdik. Bu çərşənbələrdə tonqal qalayıb üstündən "Ağırlığım, uğurluğum odda yansın", - deyib tullanırdıq. On beş ildir ki, hərbi xidmətdəyəm. Bu illər ərzində hərbi hissədə Novruz bayramını təmtəraqla qarşılamışıq. Bütün çərşənbələrdə tonqal qalamışıq, bayram konsertləri təşkil olunub, rəqslər etmişik. Yataqxanalarda, yeməkxanalarda səmənilər Novruz bayramının gəlişinin ovqatına dönüb.

Bu ovqat hər yanda hiss olunub. Bayram günlərində Novruzun personajları olan Kosa, Keçəl, Bahar qızı hərbi hissəyə gəlirlər. Onlar şəxsi heyətə bayram əhval-ruhiyyəsi bəxş edirlər. Bayram süfrəsi açılır. Masaların üzərinə şirniyyatla zəngin xonçalar düzülür. Ulu babalarımızdan yadigar qalan bu bayramı çox sevirəm.

Novruz bayramı münasibətilə xalqımızı, bütün hərbi qulluqçuları ürəkdən təbrik edir, onlara bol ruzi-bərəkət arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Eldar Aslanov:**

- Novruz bayramı xalqımızın ən əziz bayramlarından biridir. Bu əziz bayramı bütün dünya azərbaycanlıları böyük coşqu və təntənə ilə qeyd edir. Xalqımız Novruz ənənələrini əsrlərdir ki, qoruyub yaşadır. Birliyin, təzələnmənin rəmzi olan Novruz bayramının gəlişini hər zaman səbirsizliklə gözləyirik. Bu bayram milli-mənəvi dəyərlərimizi özündə təcəssüm etdirir. Hər zaman arzulayırdıq ki, Novruz tonqalları düşmən işğalında olan torpaqlarımızda alovlansın. Arzularımız gerçəkləşib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev mədəniyyət paytaxtımız Şuşada 2021-ci ilin martında Novruz tonqalı alovlandırdı. Hər birimiz həmin günü səbirsizliklə gözləmişdik. Vətən torpaqlarının azadlığı naminə neçə-neçə zabit və əsgərimiz şəhid oldu. Bu günümüzün qürurunu bizə onlar yaşadırlar. Vətən müha-



ribəsində Zəfər qazanan Azərbaycan Ordusu minlərlə soydaşımızı doğma yurd yerlərinə qovuşdurdu. İndi o ərazilərdə genişmiqyaslı quruculuq işləri aparılır. İşğaldan azad olunmuş ərazilərimizə



dislokasiya olan hərbi hissələrdə xidmət edən şəxsi heyət Novruz bayramını böyük sevinc hissi ilə qarşılayır. Tonqal yandırılır, Kosa, Keçəl hər kəsə Novruz oyunları ilə gülüş bəxş edir. Bu gün hərbi xidmətdə olanlara, qazilərimizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Qalib Azərbaycan Ordusunun əsgəri kimi mən də xalqımızı Novruz bayramı münasibətilə təbrik edirəm.

**Əsgər Rahib Məmmədov:**

- Hər xalqın özünəməxsus adət-ənənələri var. Bizim xalqımızın adət-ənənələri çox qədimdir. Adətləri, ənənələri qədim olan xalqın özü də qədim olur, yəni, çox qədim tarixə malikik. Biz əsgərlər bunu nunla da qürurlanırıq.

Orta məktəbdə oxuyanda tariximizi də öyrənirdik, ədəbiyyatımızı da, folklorumuzu da. Adətlərimizi təkcə oxumaqla öyrənmirdik, onları görürdük, əksəriyyətinin icraçısı olurduq. Uşaqlığımızda Kosanın, Keçəlin oyunlarına biz də böyük maraqla baxmışıq. İllər keçdikcə bunların mənasını həm deyiblər, həm də oxuyub öyrənmişik. Nə oxuyub-öyrənmişiksə hamısı bir vətəndaş olaraq bizi mənəvi cəhətdən zənginləşdirir. Ədəbiyyat müəllimimiz deyirdi ki, oxuduqlarınız da, öyrəndikləriniz adətlərimiz də sizin xarakterinizi möhkəmləndirir. Boyabaşa çatdığım Hacallı kəndində qaladığımız tonqalları, o tonqalların dövrəsində yaşadığımız gözəl anları heç zaman unutmaram. Bu il hərbi xidmətimin ilk tonqalını qalayacağıq. Həmin anları bir qədər həyəcanla gözləyirəm. Həmişə tonqal qalananda ürəyimizdə niyyətlər tutardıq. Əsgər niyyəti bilavasitə torpaqla, dövlətlə, dövlətçiliklə bağlı olur. Bizim niyyətlərimiz də belə niyyətlərdən olacaq. Əminəm ki, Novruz biz əsgərlərin də niyyətlərini gerçəkləşdirəcək. Yeniyetməliyimdə Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş qonşumuzdan bir kəlam eşitmişdim: Sərhədlərimiz daxilində yad yellər əsməsin! Bu dua bizim də duamızdır...

Novruz adətləri ədəbiyyatımızda da yaşadılır, kinomuzda da, "Dəli Kür"də də Novruz adətləri elə gözəl təsvir edilib ki!

Azərbaycan Ordusunun əsgərlərinə, zabitlərinə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına xidməti uğurlar, cansağlığı arzulayıram...

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu: 1941-1945-ci illərdə alman faşizminə qarşı aparılan mübarizədə Azərbaycan xalqının rolu**

**Suallar:**

**1. Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması.**

**2. Azərbaycan II Dünya müharibəsi illərində.**

**3. Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları.**

## Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması

İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövrü olmuşdur. Dünya ağalığı iddiasında olan alman faşizmi öz niyyətlərinə çatmaq məqsədilə 1939-cu il sentyabrın 1-də Polşaya hücum etməklə İkinci Dünya müharibəsinə başladı. 1941-ci ilin yayına qədər artıq alman faşistləri, demək olar ki, bütün Avropanı, Polşanı, Avstriyanı, Çexoslovakiyanı, Yuqoslaviyanı, Yunanıstanı, bütövlükdə Avropanın bir neçə ölkəsini və Fransanın xeyli hissəsini zəbt etmişdilər. Onlar Avropanın təqribən 290 milyon nəfər əhali yaşayan 2 milyon kvadratkilometr ərazisini ələ keçirmişdilər. Almaniya 1940-cı ilin ikinci yarısında SSRİ-yə "Barbarossa" adlı hücum planı hazırlamış və məqsədi 1941-ci ilin payızına qədər SSRİ-ni diz çökdürmək olmuşdur.

Faşist Almaniyası 23 avqust 1939-cu ildə imzalanmış, on il müddətinə hücum etməmək, dostluq və əməkdaşlıq haqqında müqavilələrini pozaraq, 1941-ci il iyunun 22-də bütün sərhəd boyu SSRİ üzərinə hücuma keçdi. Bu, Rusiyanın sovet dövrü tarixinə Böyük Vətən müharibəsi kimi daxil olmuşdur. Düşmənin yaxşı silahlandırılmış və hərtərəfli təlim keçmiş 5,5 milyonluq canlı qüvvəsi, yüksək hərbi texnikaya malik 190 diviziyası Barens dənizindən cənuba doğru uzanan 5 min kilometrlik ərazidə: şimal, mərkəz və cənub istiqamətlərində geniş əməliyyata başladı. Müharibənin ilk dövründə alman faşistləri Moskvaya qədər irəliləyərək sovet ordusunun 1,5 milyon canlı qüvvəsini əsir aldı. Eyni zamanda, faşist Almaniyası İtaliya, Rumıniya, Macarıstan və Finlandiya da daxil olmaqla, işğal etdiyi bütün ölkələrin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirdi. Faşist Almaniyası hərbi cəhətdən SSRİ-dən 1,5-2 dəfə güclü idi. SSRİ isə müharibəyə tam hazır deyildi. Ölkədə arxayınlıq hökm sürürdü, üstəlik, müharibə ərəfəsində keçirilən kütləvi-siyasi repressiyalar orduya böyük zərbə vurmuşdu. Sovet ordusunun komanda heyətindən 43 min nəfər repressiyaya məruz qalmışdı. Ordunun ali rütbəli heyətindən 1800 adam həbs olunmuşdu. 5 marşaldan 3-ü, 15 ordu komandirindən 13-ü, 57 korpus komandanından 50-si, 186 diviziya komandirindən 154-ü, 406 briqada komandirindən 220-si repressiyaya məruz qalmışdı. Məhz bunlara və digər səbəblərə görə faşistlər ilk vaxtlar böyük qələbələr qazandılar.

Müharibənin ilk mərhələsində antihitler koalisiyası formalaşdı. 1941-ci ilin yayında SSRİ, ABŞ və Böyük Britaniya arasında bir sıra müqavilələr imzalandı. Avqustun 2-də ABŞ SSRİ-yə iqtisadi yardım edəcəyi barədə qərarını bildirdi. 1942-ci ilin 23 fevralında ABŞ və Böyük Britaniya arasında təcəvüzkara qarşı mübarizəyə qarşılıqlı yardım prinsipləri barədə saziş imzalandı. Faşizm əleyhinə kapitalizm və sosializm sistemlərinin vahid koalisiyası yaradıldı və 50 dövlət birləşdi.

Müharibənin gedişində əsaslı dönüşün yaranmasında Şərq cəbhəsində sovet qoşunlarının Stalinqrad (1942-1943) və Oryol-Kursk ətrafında alman ordularına qarşı keçirdikləri hərbi əməliyyatların müstəsna rolu olmuşdu. 1944-cü ilin əvvəlindən etibarən SSRİ qoşunlarının keçirdiyi bir sıra strateji hərbi əməliyyatlar nəticəsində almanlar tərəfindən zəbt olunmuş sovet əraziləri tamamilə azad edildi, döyüşlər Avropa ölkələrinə keçirildi. 1944-cü ilin oktyabrı üçün SSRİ-nin keçmiş sərhədi bərpa olundu. 1944-cü il iyulun 6-da Fransanın şimalına (Normandiya) qoşun çıxarılması ilə ikinci cəbhə açıldı. 1945-ci il aprelin 16-da Berlin uğrunda döyüşlər başlandı. Aprelin 25-də Elbada müttəfiq qoşunları görüşdü. Berlinin mühasirəsi başa çatdı. Mayın 2-də Berlin alındı. Mayın 8-də Almaniya danışıqsız təslim aktını imzaladı.

## Azərbaycan II Dünya müharibəsi illərində

Zəngin sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci dünya müharibəsində də iri dövlətlərin marağında mühüm yer tuturdu. Almaniya Bakı neftini ələ keçirməklə Şərqə - İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi də hazırlanmışdı.

Sovet Azərbaycanı isə SSRİ-nin tərkibində olduğuna görə hələ 1939-cu ilin payızında müharibəyə cəlb olunmuş, 1941-ci ilin iyunundan isə alman faşizminə qarşı müharibədə iştirak etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: "İkinci Dünya müharibəsi, əvvəlki müharibələrdən fərqli olaraq, süvari və piyadaların deyil, ilk növbədə motorların, tankların, qırıcı və bombardmancı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbçilər bu texnikanı hərəkətə gətirib düşmən üzərində qələbəni təmin edə bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, silahlı qüvvələri kifayət qədər yanacaqla təmin edə bilmişdilər".

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. Müharibə illərində bütün Bakı ölkə neftinin 70-75%-ni, benzinin 85-90%-ni verirdi. 1941-1945-ci illərdə Bakı ölkəyə (SSRİ) 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmiş, "Katyuşa" raketi, "Şpaqin pulemyotu" istehsal edir, burada "Şpaqin YAK-3" qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və hissələri hazırlanırdı.

Müharibə illərində Azərbaycanın elm xadimləri də müxtəlif problemlərin uğurlu həlli yolunda səylə çalışırdılar. Məşhur kimyaçı alimlərimizin, o cümlədən Yusif Məmmədəliyevin və başqalarının birgə səyi və əməkdaşlığı nəticəsində ən yüksək oktanlı benzin və sürtgü yağları növləri alınmışdır. Kimyaçı alimlər müharibə illərində 38 növ sürtgü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişlər. SSRİ-nin ən məşhur kimyaçı alimləri içərisində layiqli yer tutan Yusif Məmmədəliyevin qələbədə xüsusi rolu təqdirəlayiqdir. O, ən yüksək oktanlı təyyarə benzini, donmayan motor və sürtgü yağları, "Katyuşa" silahı üçün xüsusi mərmilər və başqa qiymətli komponentlər ixtira etmişdi. Keçmiş SSRİ-nin sabiq müdafiə naziri, Sovet İttifaqı marşalı, dörd dəfə Sovet İttifaqı Qəhrəmanı K.Y.Jukov öz memuarında yazmışdı: "Bakı cəbhəni lazım olduğu qədər yanacaqla fasiləsiz olaraq təmin edirdi". Rus şairi S.Mixalkov isə bu münasibətlə yazırdı: "Bakı nefti olmasaydı, heç bir tank, heç bir təyyarə yerindən tərpənməzdi, ölkədə istehsal olunan külli miqdarda hərbi texnika dəmir yığnağı olardı və qələbə qazanılmazdı".

Müharibə dövründə respublikamızın sənaye müəssisələri qələbə naminə cəbhəni lazımi məhsullarla aramsız olaraq təmin edirdilər. Azərbaycanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün təxminən 30, yeyinti sənayesi 50, yerli sənayesi isə 200 növə qədər məhsul istehsal edirdi. Ümumilikdə, cəbhəyə respublikamızda 125 vaqon isti paltar yollanılmışdı. Eyni zamanda, ordu üçün respublikamızdan dava-dərman, tibb preparatları və lazımi başqa dərmanlar da göndərilmişdi. Azərbaycan vətəndaşları 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər.

Bir sözlə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Azərbaycan xalqı daha çox itkilərə və hədsiz məhrumiyyətlərə məruz qalmış, düşmən üzərində qələbə qazanılması üçün özünün var qüvvəsini əsirgəməmişdir. Azərbaycan xalqının misilsiz xidmətləri, qələbə naminə göstərdiyi fədakarlıq ermənipərəst İttifaq rəhbərliyi tərəfindən qiymətləndirilməmiş, hətta Azərbaycana qarşı ayrı-seçkilik, ikili standart tətbiq olunmuşdu. Bakı müharibə illərində cəbhəyə həm yanacaq verirdi, həm də hərbi texnika istehsal edirdi. Lakin bunun müqabilində Bakıya "qəhrəman şəhər" statusu verilmədi, keçmiş SSRİ-də Moskva, Leninqrad və Kiyevdən sonra iri şəhər olan Bakıya II və III dərəcəli status verildi, Tiflis və Yerevan isə I dərəcəli şəhər kimi ən yüksək dərəcədə təmin edildi.

## Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları

Ümumi əhalisi 3,4 milyon olan Azərbaycan "Böyük Vətən müharibəsi" kimi tarixə düşmüş 1941-1945-ci illər müharibəsinə 640 minə yaxın oğlan və qız göndərmişdi. Böyük Vətən müharibəsi illərində Azərbaycanda yaradılan beş milli diviziya - 77-ci, 223-cü, 271-ci, 402-ci və 416-cı diviziyalar şərəfli döyüş yolu keçərək Azərbaycan xalqının və Böyük Vətən müharibəsi tarixinə qızıl hərflərlə daxil oldu. Müxtəlif cəbhələrdə göstərdikləri rəşadətə görə 416-cı diviziya "Taqanroq diviziyası" (Taqanroqu azad etdiyinə görə), döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya "Temryuk diviziyası" (Taman yarımadasını azad etdiyinə görə), 77-ci diviziya isə "Simferopol diviziyası" (Simferopolu azad etdiyinə görə) adını qazanmışdılar. 416-cı diviziya Qafqazdan Berlinə qədər döyüş yolu keçmiş, Berlinin zəbt olunmasında iştirak etmişdi. Cəbhə xətti üçün Azərbaycanda 15 min tibb işçisi, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqları haqqında Ulu Öndər Heydər Əliyev demişdir: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir".

1941-ci il iyulun 17-də Leninqrad səmasını qoruyan Hüseynbala Əliyev döyüş tapşırığını uğurla yerinə yetirib geri qayıdarkən 3 düşmən təyyarəsi ilə üz-üzə gəlir. Qeyri-bərabər döyüşdə sərrast atəşlə düşmən təyyarələrinin üçünü də məhv edən cəsur döyüşçü 17 güllə yarası almasına baxmayaraq öz qırıcısını yerə endirə bilmişdi. 1941-ci ilin dekabrında Novqorod yaxınlığındakı Pustinka kəndi uğrunda döyüşlərdə İsrafil Məmmədov misilsiz igidlik göstərmiş, 10 saat düşmənlə qeyri-bərabər qanlı döyüşdə təkbaşına yüzlərlə alman faşistini öldürmüşdür. Döyüşlərdə yüksək iradə və qəhrəmanlıq göstərən İsrafil Məmmədov ilk azərbaycanlı olaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Qafur Məmmədov, İdris Süleymanov da Şimali Qafqaz uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişlər. 1942-ci ildə Stalinqrad uğrunda döyüşlərdə Baloğlan Abbasovun snayperlər qrupu, Həzi Aslanovun tank alayı böyük igidlik göstərmişdi. Həzi Aslanovun tank alayı düşmənin 45 tankını, 26 topunu, 50 avtomobilini və eyni zamanda, 2 min nəfərədək zabit və əsgərini məhv etmiş, 13 tankını və 175 avtomaşınını ələ keçirmiş, 700 nəfərini əsir götürmüşdü. H.Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. O, ikinci dəfə bu adı Brezina çayını keçərək Presini şəhərini və 508 yaşayış məntəqəsini azad etdiyinə görə almışdı. 1945-ci ilin yanvarında Polşa və Çexoslovakiyanın faşistlərdən təmizlənməsi uğrundakı döyüşlərdə göstərdiyi igidliyə görə görkəmli tarixçi alim, akademik Ziya Bünyadov da daxil olmaqla, 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Azərbaycandan cəbhəyə səfərbər olunan 640 min adamdan yarıdan çoxu həlak olmuş və itkin düşmüş, 123 nəfər isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox azərbaycanlı əsgər və zabit müharibədə göstərdikləri igidliklərə görə müxtəlif orden və medallarla təltif olunub. Təkcə SSRİ-nin deyil, eyni zamanda, digər ölkələrin də faşizm işğalından azad edilməsində xüsusi qəhrəmanlıq göstərmiş əfsanəvi qəhrəman "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə kimi Azərbaycan övladları həm İtaliya, həm Yuqoslaviya, həm də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

1418 gün davam edən Böyük Vətən müharibəsi sovet xalqının sıx birliyinin və vətənə məhəbbətinin nümayişinə çevrilmişdi. Böyük qələbə, milliyyətindən asılı olmayaraq, xalqların kütləvi qəhrəmanlığının məntiqi nəticəsi idi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsindən sonra müharibə veteranlarının xidmətləri çox yüksək qiymətləndirilmiş, veteranlara dövlət qayğısı göstərmək haqda 1994-cü ildə fərman imzalamışdır. Ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də yüksək səviyyədə davam etdirilir. Bunu cənab İlham Əliyevin 1941-1945-ci illər müharibəsi veteranlarına, əlillərinə, həlak olmuş və sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, müharibə illərində arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə dövlət qayğısının artırılması haqqında verilmiş fərmanı, Qələbə günü münasibətilə hər il müharibə veteranlarının təbrik edilməsi və onlara verilən birdəfəlik yardımlar haqqında sərəncamları və yubiley medalları ilə təltif edilməsi buna əyani sübutdur.

XX əsrdə bəşəriyyət alman faşizmi ilə, Azərbaycan xalqı isə dörd dəfə (1905-1911, 1918-1924, 1948-1954, 1988-1994) erməni faşizminin vəhşilikləri ilə üzləşmişdir. Erməni daşnaklarının törətdikləri vəhşiliklər öz miqyasına və qəddarlığına görə heç də Böyük Vətən müharibəsində faşistlərin törətdikləri vəhşiliklərdən geri qalmamışdır. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə zamanı torpaqlarımızın bir qismi işğal olunmuşdur. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə 44 günlük müharibədə başa çatmışdır. 2020-ci ilin sentyabrın sonuna kimi təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində Azərbaycan Ordusunun əks-hücum əməliyyatları heç vaxt erməni işğalı ilə barışmayacağını, daim döyüşə hazır olduğunu göstərdi. Babalarımızın Böyük Vətən müharibəsində, atalarımızın və qardaşlarımızın Qarabağ savaşında göstərdikləri qəhrəmanlıqları özlərinə örnək götürən qəhrəman Azərbaycan xalqının övladları Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında tarixi ədaləti bərpa edərək 30 ilə yaxın davam edən əzəli və əbədi torpaqlarımızı erməni işğalından azad etdi. Azərbaycanın parlaq qələbəsi dövlətimizin regionda söz sahibi olduğunu tam açıqlığı ilə nümayiş etdirdi.

**İdeoloji iş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Quru Qoşunlarında hərbiləşdirilmiş kros birinciliyi keçirilib



2023-cü ilin döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarının hərbi hissə və birləşmələri arasında hərbiləşdirilmiş kros birinciliyi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, birincilik uğrunda 24 hərbi qulluqçu 8 komanda üzrə mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən yarışda hərbi qulluqçular atış, qumbaraatma və 3 kilometr məsafəsinə kros qaçışı üzrə güclərini sınayıblar.

Yarışın nəticəsinə əsasən, "Hadrut", "Bərdə" və "Kəlbəcər" komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

Yekunda qaliblər diplom, kubok və medallarla mükafatlandırılıblar.

Qeyd edək ki, qaliblər cari ilin aprel ayında Azərbaycan Ordusu üzrə keçiriləcək kros birinciliyində güclərini sınayacaqlar.





# Müdafiə Nazirliyinin bir qrup nümayəndə heyəti Qazaxıstanda səfərdə olub

*Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq, Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu bu ölkəyə səfər edib.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfərin proqramına uyğun olaraq nümayəndə heyətinə qoşun xidməti və hərbi polis orqanlarının fəaliyyətinin təşkili, təhlükəsizlik və digər mövzularda brifinq təqdim olunub.

Görüşdə mövcud əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir

*Çətin relyefli və dağlıq ərazilərdə dislokasiya olunan Azərbaycan Ordusunun bölmələrində istənilən hava şəraitində xidməti-döyüş fəaliyyətinin təşkili məqsədilə həyata keçirilən tədbirlər davam etdirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun mühəndis bölmələrinin digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində təxliyə yollarının daim işlək vəziyyətdə saxlanılması, avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə 2023-cü ilin mart ayının 1-dən 15-dək Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətlərində ümumilikdə 2250 km-dək yol qar örtüyündən təmizlənib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir.

# İdman

## Yunan-Roma güləşi üzrə millimiz tarixi uğura imza atıb



Rumıniyanın Buxarest şəhərində güləş üzrə U-23 Avropa çempionatı davam edir.

Yunan-Roma güləşi üzrə mübarizəyə yekun vurulub. Qitə birinciliyinə məşqçilər Həsən Əliyev, Emin Əhmədov və Turac Hüseynlinin rəhbərliyi altında tam heyətlə yollanan millimizin 4 üzvü fəxri kürsüyə qalxıb. Elmir Əliyev (60 kq), Qurban Qurbanov (72 kq) və Murad Əhmədiyev (97 kq) qızıl Xasay Həsənli (77 kq) isə gümüş medal qazanıblar.

Toplamda 123 xal toplayan yığmamız komanda hesabında dördüncü yeri tutub. Millimiz ilk üçlükdə yer alan Türkiyə (127), Ukrayna (126) və Gürcüstandan (125) cüzi fərqlə geri qalıb. Buna baxmayaraq, medalların əyarına görə, 3 qızıl və 1 gümüş medalla məhz Azərbaycan ən yaxşı nəticəyə imza atan ölkə olub. Müqayisə üçün nəzərinizə çatdıraq ki, komanda hesabında çempion olan Türkiyə qızıl medalsız qalıb. Ukrayna və Gürcüstan isə bir qızıl medal əldə ediblər.

Qeyd edək ki, millimiz bu yarışda 2 rekordunu yeniləyib. Komandamız həm toplanan xallara, həm də medalların əyarına görə özünün ən yaxşı nəticəsini gerçəkləşdirib.

## Paracüdoçumuz Xanım Hüseynova Qran-Pri turnirində qızıl medal qazanıb



Azərbaycan paracüdoçusu Xanım Hüseynova Misirin İsgəndəriyyə şəhərində keçirilən Qran-pri turnirində qızıl medal qazanıb.

Turnirdə 70 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz bütün rəqiblərini məğlub edəcək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Martın 13-də Namiq Abaslı (73 kq) bu mötəbər turnirin qalibi olub.

## İkiqat Paralimpiya çempionu İlham Zəkiyev Misirdə Qran-pri turnirinin qalibi olub



Azərbaycan millisi Misirin İsgəndəriyyə şəhərində keçirilən Qran-pri turnirində növbəti qızıl medala sahib olub.

Turnirdə 90 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən ikiqat Paralimpiya çempionu İlham Zəkiyev bütün rəqiblərinə qalib gələrək yarışı birinci pillədə başa vurub.

"Tokio-2020" Yay Paralimpiya Oyunlarının qalibi Xanım Hüseynova (70 kq) da qızıl medal əldə edib.

## Millimizin cüdo üzrə "Böyük dəbilqə" turniri üçün heyəti açıqlanıb



Martın 24-26-da Tbilisidə cüdo üzrə "Böyük dəbilqə" turniri keçiriləcək. Turnirdə ölkəmizi 13 cüdoçu təmsil edəcək.

Ölkəmizin idman şərəfini Kəramət Hüseynov, Turan Bayramov (hər ikisi 60 kq), Kamran Süleymanov (66 kq), Rəşid Məmmədəliyev, Nəriman Mirzəyev (hər ikisi 73 kq), Rüstəm Orucov, Elcan Hacıyev (hər ikisi 81 kq), Vüqar Talıbov (90 kq), Camal Həmzətxanov (100 kqdan yuxarı), Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva, Aydan Vəliyeva (hər ikisi 52 kq) və Fidan Əlizadə (57 kq) qoruyacaqlar.

Turnirdə 61 ölkədən cüdoçular medallar uğrunda mübarizə aparacaqlar.

**AZƏRTAC-ın materialları əsasında**

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Abbasov Ruslan Elşən oğluna məxsus AD № 0026334 nömrəli və kiçik çavuş Dadaşov Nicat Tehran oğluna məxsus AD № 0042554 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 154
Nüsxə 4725